Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 74-75 (7123-7124) * Çərşənbə axşamı, 1 oktyabr 2013-cü il * Qəzet ayda 4 dəfə çıxır * Qiyməti 40 qəpik



## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Quba rayonuna səfər etmişdir.

* * *

Dövlət başçısı İlham Əliyev Bakıda qonaq olan UEFA-nın prezidenti Mişel Platini ilə görüşmüşdür.

Görüş zamanı Azərbaycan ilə UEFA arasında uğurlu əməkdaşlığa, ölkəmizdə futbolun inkişafı istiqamətində islahatların aparılmasına dair məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

* * *

Prezident İlham Əliyev Avropa Milli Kitabxanaları Konfransının prezidentini və Avrasiya Kitabxanalar Assambleyasının vitse-prezidentini qəbul etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun seçkiləri müşahidə missiyasının rəhbərlərini qəbul etmişdir.

Görüşdə Azərbaycanda qarşıdan gələn prezident seçkiləri üzrə görülən hazırlıq işlərinin vəziyyəti və seçkilərin keçirilməsi ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

* * *

Dövlətimizin başçısı İlham Əliyev Bakının Nizami rayonunda istifadəyə verilmiş 204 nömrəli elektrik yarımstansiyası ilə tanış olmuşdur.

* * *

Bakı-2017 İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsi tərəfindən İndoneziyanın Palembanq şəhərində ölkəmizin paytaxtında keçiriləcək İslamiadaya həsr olunan «Azərbaycan günü» təşkil edilmişdir.

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videomüraciəti səsləndirilmişdir.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Böyük Britaniya Baş nazirinin ticarət üzrə elçisi, Lordlar Palatasının üzvü Lord Risbinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

**Miri RƏHİMOV.**

# 10 il: sürətli inkişaf və tərəqqi yolları

## Əsas makrogöstəricilər

—Azərbaycan xalqının ümummilli lideri, XX əsrin ən böyük dövlət və ictimai xadimi Heydər Əliyev siyasəti ötən 10 il ərzində cənab Prezident İlham Əliyev tərəfindən təşəbbüskarcasına, cəsarətlə, möhkəm iradə, tükənməz enerji və yenilməz qüvvə ilə həyata keçirilmişdir;

—**NƏTİCƏ:** Azərbaycan regionun ən qüdrətli dövlətinə çevrilmişdir. Respublika ənənəvi rəqabətlilik indeksinə görə ötən ilə nisbətən 7 pillə irəliləyərək 148 dövlət arasında 39-cu yerdə qərarlaşmış, MDB-də liderliyini qorumuşdur;



—Ölkə həyatının bütün sahələrində əldə olunan uğurlar dünyanın nüfuzlu beyin mərkəzləri tərəfindən də təqdir olunur və respublikamızın davamlı inkişaf yolunda olduğu vurğulanır;

—Müstəqil Azərbaycan qazanılan böyük uğurlara görə artıq beynəlxalq aləmdə yüksək nüfuz sahibinə çevrilib. İndi ölkəmiz demokratik və bəşəri dəyərlərin bərqərar olduğu məkandır, dünya birliyinin üzvüdür, davamlı inkişaf edən, dayanıqlı iqtisadiyyata malik ölkədir. Ötən müddət ərzində bütün ölkədə, o cümlədən regionlarda yüksək keyfiyyət dəyişiklikləri baş vermişdir;

—Qeyd olunan müddət ərzində ümumi daxili məhsul 3,4 dəfə artmış, onun hər nəfərinə düşən hissəsi 3 dəfə çoxalmış, 1 milyon 200 min yeni iş yeri açılmış, bu iş yerlərinin 11 mindən çoxu Qəbələnin payına düşmüşdür. Yoxsulluğun səviyyəsi 46,7 faizdən 6 faizə enmişdir. Bu ilin 6 ayında isə yeni açılan iş yerlərinin sayı 55 minə çatmışdır;

—Kredit qoyuluşunun həcmi 23,5 dəfə, dövlət büdcəsinin gəlirləri 19 dəfə, əsas kapitala yönələn investisiyalar 7 dəfə artmışdır;

—Sənaye məhsulu 2,8 dəfə, kənd təsərrüfatı məhsulu 1,5 dəfə, informasiya və rabitə xidmətləri 9 dəfə, tikinti işləri 14 dəfə, pərakəndə ticarət dövriyyəsi 3 dəfə, nəqliyyatda yük daşımaları 2,1 dəfə çoxalmışdır;

—Xarici ticarət dövriyyəsinin həcmi 8,8 dəfə, qeyri-neft məhsullarının ixracı 6,5 dəfə artmış, xarici ticarət tərəfdaşlarının sayı xeyli yüksəlmiş və 155-ə çatmışdır. Xarici investisiyaların həcmi 4,6 dəfə, qeyri-neft sektoruna yönəldilən investisiyalar 16,7 dəfə artmışdır;

—Aqrar sahənin inkişafına, əhalinin ərzaqla təminatına xüsusi diqqət yetirilmişdir. Əgər 2003-cü ildə ölkədə adambaşına 246 kiloqram taxıl düşürdüsə (təmizlənmədən sonrakı çəkidə) 2012-ci ilin yekunlarına görə bu göstərici 292 kiloqram təşkil edib. Ümumiyyətlə, taxıl istehsalı həmin müddət ərzində 36,2 faiz artıb. Bostan-tərəvəz bitkiləri istehsalında da xeyli artım yaranıb;

—Sözügedən dövrdə ölkədə sosial münasibətlərin tənzimlənməsi davam etmişdir. Əhaliyə verilən sosial müavinətlərin, əmək pensiyalarının baza hissələri, minimum əməkhaqqı müntəzəm olaraq artmış və artmaqda davam edir. Hazırda əmək pensiyalarının baza hissəsi 128 ABŞ dollarıdır. Bu göstəriciyə görə Azərbaycan MDB-də ön yerlərdən birini tutur. Ümumiyyətlə, 2003-2013-cü illərdə əmək pensiyalarının orta aylıq məbləği 9,2 dəfə, minimum məbləği 7,1 dəfə artmışdır. Pensiyaların 97 faizinin pensiya məbləği yoxsulluq həddini üstələmişdir.

Qeyd edək ki, istər iqtisadiyyat, istərsə də sosial siyasət sahəsində həyata keçirilən islahatlar və digər tədbirlər nəticəsində qazanılan uğurlar barədə daha çox faktlar və rəqəmlər gətirmək, misallar söyləmək mümkündür. Başlıca məsələ bundadır ki, ölkədə sosial-iqtisadi inkişaf, tərəqqi uğurla davam edir, əhalinin həyat səviyyəsi durmadan yüksəlir, bu yüksəliş dünya miqyasında önəmli bir yüksəlişdir. Yüksəlişin necə böyük miqyas aldığını görmək üçün bizcə ölkənin 23 il bundan əvvəlki vəziyyəti ilə bu günümüzü müqayisə etmək kifayətdir. O vaxtlar əhalinin ərzaq və zəruri tələbatlarının təminatındakı çətinlikləri, Qarabağ uğrunda gedən döyüşlərin ağrı-acılarını yaddan çıxarmaq tam ədalətsizlik olardı.

**Nadir ATAKİŞİYEV.**